

*Qəşəm İsabəyli*

# DEYİMLƏR... DUYUMLAR...

***

Bir bülbül ömrünü vursam da başa,
Bir bülbül nəğməsi oxumamışam!

***

"Eşq" sözündə səhv elədi makinaçı,
- Sən birinci deyilsən ki, - dedim - bacı!

***

Kəndimizə yollanardım quş qanadında,
Vardı çəkən həsrətimi ana adında.

Ana
Başını qaldırıb üzümə baxdı,
Gözümü gizlədim... ağlayacaqdı.

***

Gecələr yuxuda görürəm yarı,
Mənsiz də ötüşmür yar yuxuları.

***

Damcı tər -
Bar-bəhər.

***

Bu çöllərin yaraşığı - yam-yaşıl oba...
Bir də qoyun, bir də quzu, bir də xan çoban.

Ana gözləri
Üzüldü qaldı -
Bir cüt xəyaldı...

***

Qadın - əllərindən... qız - ürəyindən...
Qocalıq deyil ki, saçındakı dən!

***

Arı yuvası -
Xəyal dünyası...

***

- Çalış-çarpış, nə fayda, ömür qalır yarıda!..
- Kəpənək də fırlanır gül başına, arı da!..

***

Dəryaz-çın - əli;
Əkinçi əli.

Rəsul Rzanın xatirəsinə
Söz-söz, misra-misra yanıb töküldü,
Çay kimi kükrədi, gül kim? öldü.

***

**_Bacım Kifayətin xatirəsinə_**

O qəlbi saf, eşqi dərin bir gözəldi,
Gözəlliyi bədr olmamış, gözə gəldi.

***

Belə cilvələnmə, silkinmə belə,
Gözüm gözəllikdən alışa bilər!

***

İki sözlə bir lövhə çək -
Bənövşədə beşd? ləçək.

***

Ürək olub bir gözəlin əsiri,
Nə dostu var, nə həmdəmi, nə sirri.

***

Həsrətin, hicranın yolunu yorub -
Məhəbbət inamdır, inamı qoru!

***

Taleyin atı - yorğa-yüyürək.
Heç nə istəmirə, tablasın ürək.

***

Çalışsam da görməyirəm xeyrin-barın,
Səməd Vurğun olmaq olmur, balalarım!

***

Qoymayır məni gözündən yana,
Yardımı bu qız, yoxsa ki, ana?!

***

Kəhərimin iz saldığı yollar uyuyur,
Hayandasa xatirəmi göz yaşı yuyur.

***

Misralarım qəlbimin oğlu-qızıdı,
Şerlərim arzumun yaş kağızıdı.

***

Özündən müştəbeh adam görəndə,
Bir rəğbət oyanır özümə məndə!

***

Ağacın böhranı - çiçək, çiçəyin böhranı-bardı,
Eşqim qəlbimin böhranı, barını illər apardı.

***

Bir az ötgəm oldun, qeylü qalın var,
Bir az yazıq oldun, sataşacaqlar.

***

Asataca sancdılar, yandı... bağırdı...
Ded?lər: - Məlumdu, günahı vardır!

***

Ürəyim deyir ki, bu qəm - Allahın...
Əllərim deyir ki, mənəm Allahın!

***

Tanrı mənə bir üz verib - qəm ovsunlayan,
Bir dənə də ürək verib: - Yamanlara yan!..

***

Bu balaca yanğılar xislətindi,
Bu yanğıyla şair olmaq çətindi.

***

Salmaz acığını söhbətə-səsə,
Güzgüdə özünə baxar, gülümsər.

***

Adını soruşdum... adı -
Arzusudu... tanımadım.

***

Qəlbimin yenə də tutub acığı,
Hansı gözəldənsə var umacağı.

Əcəl
Sinəmdəki ağrı deyil, isdəklərindi,
Hansı yaşda ayaq bassan - yaran dərindi.

Ilham
Qaçaq düşüb könlümüzdən o məhrəm hiss,
Düşünməyi unutmuruq bəlkə də biz!

Oğlum Anara
Yarı bələkdə -
Bir güldü ləkdə.

**_Professor Rizvan Piriyevin xatirəsinə_**

Bir tikə çörəyi beş yerə bölər,
Bir tikə sevincə sevinə bilər.

***

Açılan səhər - bar-bəhərindi,
Tale - əllərin, bəxt - hünərindi.

Məhəbbət
O ağac deyil ki, qala barından,
Asıla qış boyu budaqlarından.

**_Ustadım Məmməd İsmayıla_**

Taleyi ömrünə qəmmi arıdıb,
Gülüşü elə bil göz yaşlarıdı!

***

Yaza bilməyəndə sığındım qəmə,
Yazdım... sığışmadım elə-aləmə!

***

- Yaman günlərin ömrü az...
- Ömürdən ki, uzun olmaz!

***

Sözünə qul olub dünyanı gəzdi,
Canına getsəydin, əsirgəməzdi.

Hicran
Bir ay da getdi -
"Ax-vay"da getdi.

Vüsal
Günlərin ömrü qardandı,
Arzularım bahardandı.

***

Burda ömrümüzdən günlər ötüşdü,
Taleyin boynuna minnəti düşdü.

***

Ağrılar, göynəklər - ömrün varlığı,
Ürəyə sakinsə - bəxtiyarlığı!

***

Nələr eyləmədin, ay dəli hicran?!
Dədəli hicran!

***

Gülü bardan soruş, barı ağacdan,
Çəməni çiçəkdən, çiçəyi tacdan.

***

Çaya yoldaş olub, meşəni gəzdim,
Bu günü yaşasam, qəm eləməzdim.

***

Saymadıq sayanı, saymazı saydıq-
Biz meşə olmazdıq ağac olsaydıq.

***

Sevincdən doğulan kədərə düşdü,
Kədərdən doğulan hanı... ölmüşdü.

***

Könlümü çulğayan fikrə datmışam -
Özümü-sözümü çox aldatmışam.

***

Özünlə üz-üzə qaldığın yetər,
Bu da arzuların, bəhrəsini dər.

***

Körpəliyim ötən yerlər arzuma dar,
O çağlara həmdəm olan ürəkmi var?!

***

Açılıb ilhamın yazı;
Ürəkdə qalmaz murazı.

***

Budağa sığına bir bala sərçə,
Ötə... dinləyəsən sübh-səhərəcən.

***

Qəm qarsıb, çatlayıb dil-dodağımız,
Hanı hər sevincə çapan çağımız?!

***

- Arzu ömrə gün sınacaq!..
- Çiçək ətrə sığınacaq!..

***

Məhəbbət qəmi üzdədi
Qəm məhəbbəti üzzəd?...

***

Bir zəmi də bir dəndi,
Bir gün də ömürdəndi.

***

Zaman -
An...

***

Qar yağıb qaşa, bax!
Yaşa bax, başa bax!

***

Yol ver yoldaşa,
Yol tut, yollaşaq.

**_Müəllimim Budaq Budaqova_**

Könlü-gözü arzuma, eşqimə açılan dan,
Yeridiyi yer belə inciməyibdir ondan.

**_İlk kitabını görməyən Məşədi Ismayılın xatirəsinə_**

O arzuydu, o taledi ömrün qaynağı,
Kimsə şirin təsəlliyd?, kimsə göz dağı.

***

Saat işləyir...
Dinşəyin bir...

***

Əl - əsa -
Heç olmasa!

***

Budurmu taleyin ömrü - bir qarış...
Sanılı günləri - sirli-sifariş.

***

Ürəyim deyinir... şeirdi yəqin?!
Ürəyim sevinir... şerdi yəqin?!

Zəhmət
İstəyimə yollar uzun...
Əli qabar arzumuzun.

***

An dönür - saat olur,
Uduzan həyat olur.

***

Məlum həqiqətlər, mühakimələr
Fikirdən-xəyaldan yaşanmaq dilər.

Araz
Ürəkdən çıxartmaq çətin...
Yarası dərindi millətin!

Şair
Ceyran izinə düşdüyün yetər,
Ceyrana dönüb sözlər, fikirlər.

***

Qucağa öyrətmə oğulu,
Qarışıqdır ömür yolu.

***

Yıxıla-yıxıla böyüyür oğlum -
Hamar olmayacaq ömrünün yolu.

Ilham
Bircə anda gözlərimə çökür duman,
Sonra bütöv ömrə əvəz - bir kiçin an...

***

Beş ada əvəzdi adı,
Bir ömrü də yaşamadı.

Tale
Ütülü-biçili günləri - məlum -
Baş ucu həyatdı, son ucu - ölüm.

***

- Ölümdən o qədər qorxmuram, ancaq
Təklikdən qorxuram! - Söylədi qoca.

Payız
Yağışa düşmüş çiçək,
Arısı uçmuş pətək.

***

Baxmaz bahar, baxmaz payız, baxmaz qışdı bu,
Bu tezliklə kəsən deyil, kor yağışdı bu!

***

Ağacların gül vaxtına düşdü yağış-qar,
Bunca barı saxlamazdı yoxsa ağaclar.

***

Çiçəyin yuxusu şehdi,
Arının yuxusu behişti.

***

Ağaclar titrəyir, yağışlar yağır,
Yer tutmur buludun əli-ayağı...

***

Dərələrdə sel daranır, təpələrdə al günəş,
Ömür - payız, payız -həzin, həzinlik -
xəyal günəş...

Yağış həsrəti
Neçə gündür can çəkişir qara buludlar,
İnildəyir, sızıldayır çiçəklər, otlar.

***

Ürəyim qabar tutub -
Arzulardan bar tutub.

***

Arzu - ömrün vüsalı -
Ürəyə ağrı salıb.

***

Bu yellər bir yel deyil, son baharın payıdır,
Bu günlər bir gün deyil, qəmə dönüb qayıdır.

Mübarizə
Sakit günlərimi yetirdim başa,
Tanrı da şahiddi - qoşalaşmışam!

***

Bu nə gecə, nə gündüzdü,
Bu ömrü arzular üzdü?!

Qardaşım Tofiqin xatirəsinə
Sən məndən böyükdün boyda-buxunda,
Mən kiçik qardaşdım sənə baxanda.

Avtoportret
Oğlum oldu - təkrarım var, ömrüm artdı dünyada;
Ölüm nədi, itim nədi - düşməyəcək day yada!

Kotan
Torpağa quylasan - dinməz,
Qızıla tutsan - sevinməz.

Təsəlli
Yuxarı qırxdan -
Yeni sökür dan.

Avtoportret
Hər qəmə qəmlənmək olmayır daha,
Sevincə sevinmək ondan da mahal.

***

Gözləri intizar vəfalı yarın -
Bahara uzalı durna qatarı...

Balta
Bir cüt əli etsə əvəz,
Qarğıdan sap kəs, inciməz.

Hicran
Bir ay da getdi;
"Ax-vay"da getdi.

Oğlum Anara
Tale gün sınıb adına;
Ata sığınıb adına.